Artıq üçüncü ildir ki, ölkəmizdə dövlət uşaq müəssisələrində tərbiyə alan kimsəsiz, valideyn himayəsindən məhrum və aztəminatlı ailələrdən olan uşaqların müəssisələrdən bioloji və alternativ ailələrə verilməsini və onlara yaşadıqları ərazidə icmaəsaslı sosial xidmətlərin təşkil edilməsini nəzərdə tutan "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" həyata keçirilir. Qeyd olunan proqramın icrası istiqamətində bir sıra əhəmiyyətli işlər görülüb. Belə ki, əlaqədar qurumlarla birlikdə bütün internat məktəb və uşaq evlərinin fəaliyyətinin monitorinqi aparılıb, dövlət uşaq müəssisələrinin və orada yaşayan uşaqların qiymətləndirilməsi keçirilib, məlumat bazası yaradılıb və dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Plan hazırlanıb. Plana əsasən Bakı şəhər 2 saylı uşaq evi nəzdində "Günərzi Qayğı Mərkəzi" adlı alternativ xidmət növü təşkil olunub.

Bundan əlavə, 7 internat tipli müəssisənin transformasiya edilməsi, onlardan 4-nün gimnaziya, 2-nin ümumtəhsil, 1-nin inkluziv komponentli məktəbə çevrilməsi istiqamətində işlər görülür.

2009-cu ildə 3 internat tipli müəssisə ümumtəhsil məktəb, gimnaziya, idman təmayüllü liseyə çevriləcək. Hazırda ölkəmizdə "Uşaq müdafiəsi sistemi"nin yaradılması üzrə iş gedir. Bununla əlaqədar pilot layihə çərçivəsində məlumat bankının, alternativ qayğının, ailələrə verilmiş uşaqların vəziyyətinin öyrənilməsi üzrə monitorinq sisteminin yaradılması nəzərdə tutulub.